TURKPA

PARLIAMENTARY ASSEMBLY OF TURKIC-SPEAKING COUNTRIES

**HÜQUQ MƏSƏLƏLƏRİ KOMİSSİYASI**

**İKİNCİ İCLAS**

**TÖVSİYƏ QƏRARI**

**"TÜRKPA MİLLİ PARLAMENTLƏRİNİN PROSEDUR QAYDALARI VƏ PARLAMENT ÜZVLƏRİNİN MÖVQEYİ"**

**"TÜRKPA ÜZV ÖLKƏLƏRİ ARASINDA QANUNVERİCİLİK SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ"**

TÜRKPA üzv ölkələrinin konstitusiyaları üzv ölkələrin dillərinə tərcümə olunmuş və bu məcmuə qeyd edilən konstitusiyalardan faydalanmaq məqsədi ilə kitab formatında çap olunmuşdur.
Bununla da parlament üzvləri və ekspertlərin öz konstitusional fəaliyyətlərində yararlana biləcəkləri mənbə yaradılmışdır.

Milli qanunvericiliklərin uzlaşdırılması və qanunverici məsələlər ilə bağlı informasiya mübadiləsinin aparılması məsələləri TÜRKPA-nın təsis nizamnaməsində Assambleyanın məqsədləri kimi göstərilmişdir. Konstitusiya mətnlərinin toplanmasından əlavə, TÜRKPA üzv parlamentlərində qəbul olunan qanunvericilik aktlarının üzv ölkələrin dillərinə tərcümə olunması və kitab şəklində çap olunması, eləcə də bununla bağlı parlament ekspertləri və akademiklərin iştirakı ilə konfransların təşkil edilməsi təsis nizamnaməsində müəyyən olunmuş məqsədlər sırasına daxildir.
Bununla yanaşı, "Parlament terminləri lüğəti"nin hazırlanması vacib əhəmiyyət kəsb edir, belə ki, bu həm TÜRKPA-nın təcrübəsini zənginləşdirəcək, həm də onun fəaliyyətinə böyük töhfə verəcəkdir.
TÜRKPA-nın üzv ölkələri arasında qanunvericilik məsələləri üzrə əməkdaşlığı inkişaf etdirilməsi və qanunvericiliklərin uzlaşdırılması üçün aşağıdakı məsələlər təklif olunmuşdur:

1. parlament rəsmiləri tərəfindən artıq həyata keçirilən qarşılıqlı səfərlərin artırılması

2. məmurlar və ekspertlərin iştirakı ilə seminarların, təlim proqramlarının təşkil edilməsi, parlamentlərin müvafiq strukturları arasında ikitərəfli və çoxtərəfli görüşlərin keçirilməsi
3. üzv dövlətlərin parlamentlərinin rəsmiləri arasında qanunvericilik sahəsində təcrübə proqramlarının təşkil edilməsi
4. universitet tələbələri üçün parlamentlərdə beynəlxalq təcrübə proqramının təşkil olunması

5. üzv dövlətlərin qeyri-hökumət təşkilatlarına qanunvericilik sahəsində təlimlərin keçirilməsi
6. effektiv informasiya və sənəd mübadiləsinin təşkil edilməsi
7. ümumi qanunvericilik problemlərini müzakirə etmək üçün elm xadimləri və ekspertlərin iştirakı ilə simpozium və konfransların təşkil edilməsi; cari qanunvericilik problemlərini müzakirə etmək üçün üzv dövlətlərin parlament ekspertlərinin iştirakı ilə illik seminarların təşkil edilməsi
8. qanunvericilik üzrə ekspertlər və parlament rəsmilərinin üzv dövlətlərin dillərini öyrənməyə təşviq edilməsi, bu məqsədlə dil kurslarının təşkil edilməsi